“AZƏRBAYCAN DÖVLƏT DƏNİZ AKADEMİYASI”

PUBLİK HÜQUQİ ŞƏXSİ

“TƏSDİQ EDİRƏM”

“Azərbaycan Dövlət Dəniz Akademiyası”

Publik Hüquqi Şəxsin

prorektoru_____dos. V.B.Sadıqov

“_____”_____2025-ci il

KEYFİYYƏTİ İDARƏETMƏ SİSTEMİ

“Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-də bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması qaydaları

ADDA-TL-023

BAKI 2025

MÜNDƏRİCAT

Giriş.....3

1. Tətbiq sahəsi.....3
2. Məsuliyyət.....4
3. Daxil olan məlumatlar, Təşkilati məsələlər.....4
4. Yekun müddəlar..... 5
5. Prosesin ölçüləri və meyarları.....5
6. Resurslar.....5

GİRİŞ

Bu Qaydalar Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 20 may tarixli 230 nömrəli Qərarı ilə təsdiq edilmiş “Orta ixtisas təhsili müəssisələrinə bakalavrların, ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə (əsas (baza ali) tibb təhsilinə) müvafiq ixtisaslar üzrə subbakalavrların qəbulu, habelə bakalavriatı (əsas (baza ali) tibb təhsilini) başa vurmayan şəxslərin orta ixtisas təhsili müəssisələrinə köçürülməsi Qaydaları”nın 5.1. bəndində nəzərdə tutulan müddəalara (subbakalavrlar ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə qəbul olunduqda, onların müvafiq ixtisasın təhsil proqramı üzrə topladığı kreditlər nəzərə alınır) əsasən tənzimlənir;

Bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması üçün fənn uyğunlaşdırma cədvəlləri Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-nə qəbul olunan tələbələrin qeydiyyatının aparıldığı tarixdən 10 iş günü müddətində hazırlanır.

1 TƏTBİQ SAHƏSİ

1.1 Bu Qaydalar Akademiyanın daxili normativ sənədi hesab olunur və “Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-də bakalavriat səviyyəsinə qəbul olunan subbakalavrların kreditlərinin tanınması qaydaları prosedurunu tənzimləyir.

1.2 Bu qaydaların müddəaları Akademiyanın bütün qiyabi təhsilalma formasında təhsil alan tələbələrinə şamil edilir:

1.3 Bu Qaydaların məqsədi tələbənin mövcud peşəkar fəaliyyətini (ixtisası üzrə əmək fəaliyyəti) tədris planında nəzərdə tutulmuş tədris (üzmə) və ya texnoloji təcrübəyə bərabər tutmaqla onun təhsil prosesini optimallaşdırmaqdır.

1.4 Sənədləşdirilmiş prosedur təhsil prosesinin təmin edilməsi və aparılması prosesində iştirak edən bütün “Azərbaycan Dövlət Dəniz Akademiyası” Publik Hüquqi Şəxsinin əməkdaşları üçün məcburidir.

1.5 Bu sənədləşdirilmiş prosedurda istifadə olunan terminlər ISO 9000:2015 “Keyfiyyət İdarəetmə Sistemləri” Beynəlxalq Standartına uyğundur. Əsaslar və lüğət."

1.6 Bu sənəddə aşağıdakı simvollar və abreviaturalardan istifadə olunur:

İSO - Beynəlxalq Standartlaşdırma Təşkilatı;

BS - Beynəlxalq Standart;

KİS - Keyfiyyəti İdarəetmə Sistemi;

“ADDA” PHŞ – “Azərbaycan Dövlət Dəniz Akademiyası” Publik Hüquqi şəxsi, Akademiya.

1.7 Bu sənəddə aşağıdakı normativ istinadlardan istifadə olunur:

ISO 9000:2015 BS “Keyfiyyət idarəetmə sistemi. Əsaslar və lüğət"

ISO 9001:2015 BS “Keyfiyyəti İdarəetmə sistemi. Tələblər”

2. MƏSULİYYƏT

2.1 Akademiyanın rektoru bu təlimatı və ona dəyişiklikləri təsdiq edir, bu sənədin tələblərini yerinə yetirmək üçün lazımi resursları ayırır.

2.2 Akademiyanın tədris və tərbiyə işləri üzrə prorektoru bu təlimata uyğun işlərin təşkilinə görə məsuliyyət daşıyır.

2.3 Prosesdə iştirak edən Akademiyanın əməkdaşları KİS-nin hazırkı sənədində göstərilən tələblərin yerinə yetirilməsinə görə məsuliyyət daşıyırlar.

2.4 Bu təlimatın tələblərinin yerinə yetirilməsinin yoxlanılmasını daxili audit KİS-in illik planına uyğun olaraq həyata keçirir.

3. DAXİL OLAN MƏLUMATLAR TƏŞKİLATİ MƏSƏLƏLƏR

3.1 Fakültələr subbakalavrdan qəbul olunan tələbələrinin fənn uyğunlaşdırma cədvəllərini (ADDA-F-099) kredit və fənlər üzrə hazırlayır, Tədris qeydiyyat şöbəsi ilə razılaşdırır;

3.2 Uyğunlaşdırma cədvəlləri fənlərə uyğun olaraq rəy alınması üçün müvafiq kafedralara göndərilir;

3.3 Fənlər üzrə kompetensiyaların uyğun olub-olmaması haqqında kafedraların rəyi ixtisaslar üzrə müvafiq fakültələrin Elmi Şurasında müzakirə olunur;

3.4 Uyğunlaşdırma cədvəli Fakültə Elmi Şurasında təsdiq olunduqdan sonra kreditləri tanınmış fənlər nəzərə alınmaqla tyutor (akademik məsləhətçi) tərəfindən həmin tələbələrin Fərdi tədris planı (ADDA-F-044) hazırlanır.

4. YEKUN MÜDDƏALAR

a. Uyğunlaşdırma cədvəlləri 2 nüsxədə hazırlanır, bir nüsxəsi fakültədə qalmaqla, digər nüsxəsi Tədris qeydiyyat şöbəsinə təqdim edilir;
b. Eyni təhsil proqramı və ixtisası üzrə subbakalavrdan bakalavriat səviyyəsinə qəbul olunduqda bu qaydalar üzrə uyğunlaşması aparılan fənlər müvafiq proseduru keçmədən birbaşa uyğunlaşdırma cədvəlində qeyd edilir.

5. PROSESİN ÖLÇÜ VƏ MEYARLARI

5.1 “Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-də (“ADDA” PHŞ) subbakalavrların bakalavriat səviyyəsinə qəbul zamanı kreditlərinin tanınması müvafiq baza təhsil proqramlarının uyğunluğu əsasında həyata keçirilir. Əsas ölçü və meyarlar bunlardır:

5.2 **Fənn məzmununun uyğunluğu** – Əgər subbakalavr pilləsində keçilmiş fənnin məzmunu bakalavriat səviyyəsindəki fənnin məzmununa uyğun gəlirsə, həmin fənn üzrə tələbə məşğələlərdən və attestasiyadan azad olunur.

5.3 **Saatların miqdarı** – Kredit tanınması üçün fənnin saat yükü də nəzərə alınır. Əgər saat fərqi çoxdursa, əlavə təhsil tələb oluna bilər.

5.4 **Təhsil proqramları arasındakı fərq** – Əgər əvvəlki və yeni ixtisaslar arasında ciddi fərq varsa, tələbə fərq fənlərini əlavə olaraq keçməlidir.

5.4 **Təkrar ali təhsil prinsipləri** – Subbakalavrlar təkrar ali təhsil çərçivəsində qəbul olunduqda, bu proses xüsusi tədris planları əsasında aparılır və fərdi yanaşma tətbiq olunur.

6. RESURSLAR

6.1 Bu sənədləşdirilmiş prosedurun tələblərini yerinə yetirmək üçün Akademiyanın rektoru aşağıdakı zəruri resursları ayırır:

- normativ sənədlər;
- ixtisaslı kadrlar;
- binalar, avadanlıqlar, materiallar;
- maddi resurslar.

Bu Qaydalar “Azərbaycan Dövlət Dəniz Akademiyası” PHŞ-nin Elmi Şurasının “27” may 2025-ci il tarixli, № 10 saylı qərarı ilə təsdiq edilmiş və həmin tarixdən qüvvəyə minmişdir.